***İnsanlar zaman-zaman dünyanı gözəlləşdirməyə və əmin-amanlığa meyilli olsalar da, gücə arxalanan hakim dairələrin işğalçılıq hikkəsi, qənimətçilik hərisliyi bəşəriyyəti geri atmış, min illərlə yaradılan mədəni dəyərlərə ağır zərbələr vurmuşdur. Qanlı müharibələr günahsız insanların qanlarını axıtmış, toplumları göz yaşlarına qərq edərək tarixi yaddaşlarda faciəli izlər buraxmışdır. Müharibələr yalnız insanların bir-birinə qəsd etməsi deyil, bütöv cəmiyyətləri məhv edən kütləvi vəhşilikdir. Son 100 ilin tarixində ən qanlı, dağıdıcı savaş İkinci Dünya müharibəsidir. Bəşəriyyətin faşizm kabusu kimi lənətlədiyi 1939–1945-ci illər cahan müharibəsi, şübhəsiz ki, Azərbaycandan da yan keçməyib, bütün ağrı-acıları eyni dərəcədə yaşayıb. Xalqımız ön və arxa cəbhədə qəhrəmanlıq nümunəsi göstərərək faşizm üzərində qələbənin əldə olunmasına əvəzsiz töhfələrini vermişdir.***

# Azərbaycanın faşizm üzərində qələbəyə verdiyi töhfələr öyünclə yad edilir

Keçmiş SSRİ-nin tərkibində olan ölkəmizin müharibə dönəmində canlı qüvvəsi, bütün sərvətləri ilə faşist Almaniyasına qarşı mübarizədə xidmətləri danılmazdır və bunu bütün dünya bilir. Təkcə Azərbaycan nefti qələbənin əldə olunmasında müstəsna rol oynayıb. Məhz bu səbəbdən Bakının tutulması faşist Almaniyasının böyük planlarından biri olmuşdu.

Müharibə başladığı andan Azərbaycanda hərbi səfərbərlik ümumxalq hərəkatına çevrilmişdi. Minlərlə övladlarımız cəbhəyə yollanaraq xalqımızın qəhrəmanlıq nümunəsini ortaya qoydu. Müharibənin ilk ilində Azərbaycan Kommunist Partiyası soydaşlarımızdan ibarət 40 min kommunisti cəbhəyə göndərdi, 11 mindən artıq qadın da səfərbərliyə alındı. Arxa cəbhədə 260 minə yaxın evdar qadın, təqaüdçü, yeniyetmə istehsalat işlərinə cəlb olunmuşdu. Hərbi hissələr üçün 15 min tibb işçisi, sanitar drujinaçısı, 750 rabitəçi, ayrıca üç min sürücü hazırlanmışdı. Ümumilikdə,



il ölkəmizdə 9 May bəşəri bəla üzərində Qələbə Günü kimi qeyd edilir. Xalqımızın da bu müharibədə göstərdiyi qəhrəmanlıq, mərdlik kimi ali keyfiyyətlər qədirbilənliklə yad edilir, şərəfli keçmişimiz hörmətlə anılır.

Müasir Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyev bu dəhşətli müharibədə xalqımızın qəhrəmanlığını,



600 mindən yuxarı soydaşımız cəbhəyə yola salınmışdı.

Soyuq, qarlı Şimali Qafqazdan Berlinə qədər şərəfli döyüş yolu keçən soydaşlarımız istər açıq müharibədə, istər gizli partizan hərəkatında, istərsə də arxa cəbhədə qəhrəmanlıq nümunələri göstərmişdilər. Müharibədə misilsiz hünər, igidlik nümayiş etdirdiklərinə görə 140-dək həmyerlimiz Sovet İttifaqı Qəhrəmanı adına, 30 nəfər isə "Şöhrət" ordeninin hər üç dərəcəsinə layiq görülmüşdü. 170 mindən çox əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif olunmuşdu. Xalqımızın qəhrəman övladları Moskva, Leninqrad, Kiyev, Stalinqrad, Simferopol, Odessa, eyni zamanda, irili-xırdalı yüzlərlə yaşayış məntəqəsi uğrunda rəşadətlə vuruşmuşdular.

Bundan başqa, qəhrəman həmvətənlərimiz, Polşa, Çexiya və Yuqoslaviya, eləcə də başqa ölkələrin azadlığı uğrunda döyüşdə də yaxından iştirak etmişlər. Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş həmyerlimiz general Həzi Aslanovun, döyüşçülər İsrafil Məmmədovun, Gəray Əsədovun, partizan Mehdi Hüseynzadənin, matros Qafur Məmmədovun, Leninqradın müdafiəsi zamanı 17 ölümcül yara almasına baxmayaraq, təyyarəsini yerə endirən Hüseynbala Əliyevin, qəhrəman qadınlarımızdan təyyarəçi Züleyxa Seyidməmmədovanın, snayperçi Ziba Səlimovanın, gəmi kapitanı Şövkət Səlimovanın və başqa həmvətənlərimizin hünərləri tarixə düşmüşdür.

Neftçilərimizin fədakarlıq və əzmkarlığı ilə cəbhə fasiləsiz olaraq yanacaqla təmin edilmişdi. Akademik Yusif Məmmədəliyevin rəhbərliyi ilə yüksək oktanlı aviasiya benzini almaq üçün yeni texnologiyanın yaradılması da faşizm üzərində qələbəyə önəmli kömək olmuşdu.

Tarix və zaman dəyişsə belə, o dövrün ağrıları, acıları unudulmur, İkinci Dünya müharibəsində qələbə bugünümüzdə də ölkəmizdə böyük qürur hissi ilə anılır. Hər

əzmkarlığını yüksək qiymətləndirərək tarixi qələbədə Azərbaycanın payının böyük olduğunu hər zaman qeyd edirdi. İstər sovet, istərsə də müstəqillik dönəmində ulu öndər müharibə iştirakçılarının sosial problemlərinin həlli istiqamətində yaxından maraqlanır, onlara, ailələrinə xüsusi dövlət qayğısı ilə yanaşırdı.

Prezident İlham Əliyev də bu humanizm prinsiplərinə sadiq qalaraq İkinci Dünya müharibəsinin ağır və çətin sınaqlarından çıxmış veteranların qayğılarına həssaslıqla yanaşır. Ölkə rəhbərinin müharibə veteranlarına olan himayədarlığı böyük məmnunluq doğurur. Ölkə başçısının 2022-ci il 19 aprel tarixli sərəncamı ilə 1941–1945-ci illər müharibəsində iştirak etmiş şəxslərə 1500 manat məbləğində, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul xanımlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, İkinci Dünya müharibəsi illərində döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, müharibə dövründə Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqradın mühasirədə olduğu vaxt şəhərin müdafiəsində iştirak edənlərə 750 manat məbləğində birdəfəlik maddi yardım verilib.

Hər il faşizm üzərində zəfərdə xidmətləri olmuş veteranlarımızın 9 May - Qələbə Günündə dövlət başçısı ilə görüşləri keçirilir. Prezident İlham Əliyevin onlara göstərdiyi xüsusi diqqət və qayğı xalqımızın qəhrəmanlıq tarixinə dövlət səviyyəsində göstərilən yüksək münasibətin rəğbətlə qarşılanan təzahürüdür. Azərbaycanın faşizm üzərində qələbəyə verdiyi töhfələr isə ölkəmizdə həmişə öyünclə yad edilir.

***Rəşad MAHMUDOV,***
***Milli Məclisin deputatı,***
***YAP İdarə Heyətinin üzvü***